

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 128 (24.265)

*20 iyul 2023-cü il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev Özbəkistanın Baş nazirini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 19-da Özbəkistan Respublikasının Baş naziri Abdulla Aripovu qəbul edib.

Dövlətimizin başçısı bu yaxınlarda Özbəkistan Prezidenti ilə telefon danışığını xatırlayaraq söhbət zamanı Şavkat Mirziyoyevi seçkilərdə inamlı qələbə münasibətilə təbrik etdiyini və əlaqələrimizin bütün istiqamətlərdə müsbət inkişaf dinamikasına malik olmasından məmnunluq ifadə edildiyini bildirdi. Dövlətimizin başçısı əməkdaşlığın perspektivlərinin müəyyənləşdirilməsi baxımından Özbəkistanın Baş naziri Abdulla Aripovun ölkəmizə səfərinin əhəmiyyətini qeyd etdi.

İkitərəfli münasibətlərin ildən-ilə daha da inkişaf etdiyini vurğulayan Azərbaycan Prezidenti gələcəkdə də əməkdaşlığın genişləndirilməsi ilə bağlı yeni uğurlu layihələrin icra olunacağına əminliyini bildirdi.



Abdulla Aripov, ilk növbədə, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin salamlarını Prezident İlham Əliyevə çatdırdı və vurğuladı ki, Özbəkistan Prezidenti həmişə dostu və qardaşı Prezident İlham Əliyevlə təmaslardan böyük məmnunluq duyduğunu bildirir.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Özbəkistan Prezidentinə çatdırmağı xahiş etdi.

Abdulla Aripov Özbəkistanda keçirilmiş seçkilərdən sonra Şavkat Mirziyoyevi təbrik edən ilk dövlət başçısının məhz Prezident İlham Əliyev olduğunu qeyd edərək vurğuladı ki, bu da dövlət başçıları və ölkələrimiz arasında dostluğun və qardaşlığın nümunəsidir.

Dövlətimizin başçısının rəhbərliyi ilə Azərbaycanın çox böyük uğurlar əldə etdiyini deyən Özbəkistanın Baş naziri Bakının inkişafının onlarda dərin təəssürat hissi yaratdığını dedi.

Qonaq Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasının əhəmiyyətini vurğuladı.

Görüşdə Prezident İlham Əliyevin Özbəkistana dövlət səfəri və bu səfər çərçivəsində əməkdaşlığımızın hərtərəfli inkişafı ilə əlaqədar müəyyən edilmiş prioritet sahələr, bu istiqamətdə görülmüş işlərin nəticələrinin çox müsbət olduğu qeyd edildi, iqtisadi-ticarət, investisiyalar, energetika, kənd təsərrüfatı, nəqliyyat-logistika, sənaye sahələrində yeni layihələrin həyata keçirildiyi diqqətə çatdırıldı.

Söhbət zamanı Orta Dəhlizin əhəmiyyəti vurğulandı, Azərbaycanda yaradılmış azad iqtisadi zonada Özbəkistan şirkətlərinin iştirakı perspektivləri, hökumətlərarası komissiyanın fəaliyyəti və iyulun 18-də Şuşada keçirilən Azərbaycan-Özbəkistan Birgə Hökumətlərarası Komissiyasının 12-ci iclasının önəmi qeyd edildi.

**AZƏRTAC**

## Ağbulaqda təşkil edilən "Diabet mənim dostumdur" düşərgəsi başa çatıb








Ağbulaq İstirahət Mərkəzində bu münasibətlə təşkil edilən tədbirdə rəsmi şəxslərlə yanaşı, Bakı şəhərindən dəvət olunmuş həkimlər, uşaqlar və onların valideynləri də iştirak ediblər.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli tədbir iştirakçılarını salamlayaraq bildirib ki, Naxçıvanda 2023-cü il ərzində səhiyyə sahəsində aparılan islahatlar öz bəhrəsini verməkdədir. Səlahiyyətli nümayəndə diabetli uşaqlara müraciət edərək deyib: "Diabet heç bir şəkildə sizin həyatınızda maneəyə çevrilməməlidir. Yaxşı oxumalısınız, dərslərinizdə hər zaman uğurlar qazanmalısınız ki, biz və valideynləriniz də sizinlə fəxr edək".

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"ndan bəhs edən Fuad Nəcəfli proqramın şəhər və rayonlarımızda xidmətin keyfiyyətinin, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, sağlamlığının qorunması istiqamətində həyata keçiriləcək tədbirlərdə əhəmiyyətli rol oynayacağını diqqətə çatdırıb. Bildirib ki, Naxçıvanda ilk dəfə təşkil edilən düşərgə uşaqlara, onların sağlamlığına verilən dəyərin ifadəsidir və belə layihələr ardıcıl olaraq davam etdiriləcək.

Naxçıvan Muxtar Respublikasının səhiyyə nazirinin birinci müavini, nazir vəzifələrinin müvəqqəti icraçısı Samiq Sadıxov, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Qəzənfər Abdullayev, Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Ceyhun Cəlilov, "Naxçıvan Muxtar Respublikası İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsin direktoru Elnur İbrahimov çıxış edərək keçirilən tədbirin əhəmiyyətinə toxunub, dövlətin sosial sahəyə göstərdiyi diqqət və qayğının davamlı xarakter almasından bəhs ediblər.



Türkiyənin Qoç Universiteti Tibb fakültəsinin uşaq endokrinoloqu, Diabet kafedrasının müdiri, professor Şükrü Hatun tədbirdə onlayn çıxış edib.

Uşaq endokrinoloqu Azad Əkbərzadə, valideyn Rahilə Kazımova və diabetli uşaqlar çıxış edərək təşkil olunan düşərgəni yüksək qiymətləndirib, göstərilən diqqətə görə minnətdarlıqlarını bildiriblər.

*Ardı 2-ci səhifədə*

## Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi rəsmi "Twitter" hesabında paylaşım edib




Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ağbulaqda təşkil edilən "Diabet mənim dostumdur" düşərgəsinin yekun tədbiri ilə bağlı rəsmi "Twitter" hesabında paylaşım edib.

Tədbirdə uşaqlara hədiyyələr təqdim olunub.

Qeyd edək ki, Naxçıvanda ilk dəfə keçirilən tədbirdə ilkin olaraq 34 diabetli uşaq valideynləri ilə birgə iştirak edib. Üç gün davam edən düşərgədə şəkərli diabetdən əziyyət çəkən uşaqlar Bakı şəhərindən dəvət olunmuş 4 uşaq endokrinoloqu və yüksəkixtisaslı tibbi heyətin nəzarəti altında istirahət edib, müayinə olunublar. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən düşərgə təlimləri, fərdi məsləhətlər və psixoterapiya, tibbi müayinə və müalicə, qrup diskussiyaları, oyun terapiyası, rəsm, idman və intellekt yarışları keçirilib.

Düşərgə çərçivəsində Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən şəkərli diabetdən əziyyət çəkən uşaqlara "Glükoz sensor" cihazları hədiyyə edilib. Bununla da qanda şəkər səviyyəsinin ölçülməsi zamanı barmaqların zədələnməsinin qarşısı birdəfəlik alınıb.



Düşərgənin sonuncu günündə uşaqlar üçün musiqili proqram təşkil olunub, onlar havaya dilək şarları buraxıb, xatirə fotoları çəkdiriblər.

Sonra tədbir iştirakçıları uşaqlarla birlikdə nahar ediblər.

**"Şərq qapısı"**

## Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin birinci müavini: "Daim uşaqların yanındayıq və düşünürük ki, diabet bir xəstəlik deyil, yaşam tərzidir"



*"Diabet mənim dostumdur" adlı istirahət düşərgəsinin bağlanış tədbirindən sonra **Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin birinci müavini, nazir vəzifələrini müvəqqəti icra edən Samiq Sadıxov** "Şərq qapısı" qəzetinə müsahibəsində tədbirin əhəmiyyəti barədə danışıb, gələcək planlardan söhbət açıb:*

– Öncə onu qeyd edim ki, Naxçıvanda 0-18 yaş qrupu üzrə 97 şəkərli diabetli uşaq vardır. Sadəcə, Ağbulaq İstirahət Mərkəzinin imkanları daxilində birinci mərhələdə 34 diabetli uşağın valideynlərlə birgə düşərgədə iştirakını təmin etdik. Növbəti ay bütün uşaqlar belə təlimlərdə iştirak edəcək və bu, ənənə halını alacaq. Naxçıvanda keçirilən "Diabet mənim dostumdur" adlı istirahət düşərgəsi Azərbaycanda öz ilkliyi ilə seçilir. Belə ki, Azərbaycanda bu kimi tədbirlər keçirilsə də, onlar ancaq 12-13 yaşdan yuxarı uşaqları əhatə edir. Ancaq bizim düşərgədə 3 yaşında da uşaq var və valideynləri ilə birlikdə iştirak edirlər. Bu tədbirin digərlərindən fərqi odur ki, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi bundan sonra 0-18 yaşlı uşaqların 24 saatlıq qlükoza monitorizasiyası üçün qlükoz sensorlarını təmin edəcək. Bu da Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə aparılan uğurlu siyasətin, həyata keçirilən sosial layihələrin bir nümunəsidir. Sual oluna bilər ki, qlükoz sensorların olması bizə nələri verəcək? Bilirsiniz ki, diabetli uşaqlar gündə minimum 6 dəfədən artıq barmaqlarını zədələyərək qanda şəkərin miqdarını ölçmək məcburiyyətində qalırdılar. Bundan sonra artıq buna ehtiyac olmayacaq. Bu, gələcəkdə diabetin fəsadları olan böyrəklə, gözlə, sinir sistemi ilə bağlı ağırlaşmaların qarşısını alacaq və onların komfortlu həyat tərzinə sahib olmalarına şərait yaradacaqdır. Biz Səhiyyə Nazirliyi olaraq daim uşaqların yanındayıq və düşünürük ki, diabet bir xəstəlik deyil, yaşam tərzidir. Bu yaşam tərzini asanlaşdırsaq bizim üçün daha xoşdur. Bilirsiniz ki, uşaqlar bizim gələcəyimizdir, biz onları qorumalıyıq və Azərbaycan Respublikası üçün sağlam gələcək formalaşdırmalıyıq. Səhiyyə Nazirliyi bu istiqamətdə tədbirləri davam etdirəcək.




**✍ Nail ƏSGƏROV**

*(əvvəli qəzetin 15 iyul 2023-cü il tarixli nömrəsində)*

*Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" qəbul olunub. Yeni Dövlət Proqramının ümumi mahiyyəti haqqında ötən yazılarımızda bəhs etmişdik. Xüsusilə 2004-cü ildən etibarən icra olunmuş Dövlət proqramlarından fərqli olaraq yeni proqramda əsas diqqəti cəlb edəcək məsələlərdən biri həyata keçiriləcək tədbirlərin qarşıdakı dövrdə müasir çağırışlara uyğunluğunun nəzərə alınmasıdır. Bu baxımdan yeni proqramda təklif olunan istiqamətlərin qlobal təşəbbüslərə açıq olması sürətlə dəyişən dünyanın innovativ tələblərinə inteqrasiyasını da hamı üçün əlçatan edir. Bu istiqamətlər isə yeni qəbul edilmiş dövlət sənədində 11 prioritet üzrə cəmlənmişdir. Və bu prioritetlər Dövlət Proqramının təməl prinsiplərini təşkil edir. Elə bu yazıda da həmin prioritetlərin mahiyyətini anlamağa çalışacağıq.*

## Yeni Dövlət Proqramında qarşıya qoyulmuş vəzifələri prioritet edən nədir (II hissə)



…Dövlət Proqramında dördüncü prioritet kimi kənd təsərrüfatı məhsulları istehsalının və emalının inkişafı nəzərdə tutulub. Statistikaya görə, muxtar respublikada son illər kənd təsərrüfatı məhsulları istehsalında artım qeydə alınsa da, indiyədək region üçün spesifik və orqanik kənd təsərrüfatı məhsullarının müəyyənləşdirilməsi işi səthi olaraq aparılıb. Nəticədə, "hər məhsuldan bir az" düşüncəsi ilə uzun illər əkinə cəlb edilən sahələrdən əldə olunan məhsulların istehsal həcmi də reallıqla uzlaşmayıb. Yeni proqramda isə bütün bunlar nəzərə alınaraq muxtar respublikada kənd təsərrüfatının inkişaf etdirilməli sahələrinin müəyyənləşdirilməsi, həmin sahələr üzrə ehtiyacların diaqnostikasının aparılması, bölgəyə xas məhsulların əkininin stimullaşdırılması aydın şəkildə göstərilib. Xüsusilə bitkiçilik, bağçılıq, bostançılıq, heyvandarlıq, arıçılıq, üzümçülük və şərabçılıq sahələrinin inkişaf etdirilməsinin diqqətdə saxlanılmasının vacibliyi qeyd olunub. Təbii ki, bu prioritet istiqamətdə kənd təsərrüfatı məhsullarının istehsalı və ixracının təşviq olunması da əsas vəzifə kimi qarşıya qoyulub. Bu bənd üzrə icra olunacaq tapşırıqları aqrar sahədə aparılacaq islahatlar kimi də qiymətləndirmək mümkündür.

Növbəti beşinci prioritet istiqamət isə muxtar respublikada turizmin inkişaf etdirilməsi ilə bağlıdır. Naxçıvanın turizm potensialı kifayət qədər zəngin olsa da, təəssüf ki, indiyədək bu potensialdan tam istifadə edilməyib. Çünki biz turizmdən danışmağı daha çox sevirik, nəinki icra etməyi. Halbuki turizm son illərdə dünyada ən çox investisiya yatırılan sahələr üzrə ilk beşlikdədir. Dünya o qədər sürətlə dəyişir ki, məsələn, 10 il bundan əvvəl turizm üçün heç bir perspektivi olmayan bölgələr belə bu gün turizm zonasına çevrilə bilir. Artıq dünya turizmi ənənəvi turizm sahələrindən "doyub", yeni trendlər üzərində baş sındırır. Biz isə muxtar respublikanın əvəzolunmaz turizm obyektlərini indiyədək doğru-dürüst təqdim edə bilməmişik. Əgər Naxçıvanı turizm diyarına çevirməyi qarşımıza məqsəd qoymuşuqsa, ilk olaraq turizmə yanaşma dəyişilməlidir. Yeni Dövlət Proqramı da, əslində, bizdən bunu tələb edir.

Proqramda altıncı prioritet istiqamət elektrik enerjisi istehsalının və ixracının artırılmasını nəzərdə tutur. Burada, əsasən, muxtar respublikada mövcud elektrik stansiyalarının modernləşdirilməsi, dövlət-özəl tərəfdaşlığı çərçivəsində yenilərinin tikilməsi, həmçinin bərpa olunan enerji resurslarından istifadə etməklə elektrik enerjisi istehsalının artırılması və nəhayət, əldə olunan enerjinin ixraca yönəldilməsi nəzərdə tutulur. Məlumdur ki, hər il dünyada enerjiyə tələbat artır. Bu gün ən inkişaf etmiş ölkələrdə belə enerji təhlükəsizliyinin təmin olunması milli təhlükəsizliyin əsas elementi kimi qəbul edilir. Buna görə də Naxçıvanın yerləşdiyi coğrafi mövqeyinə görə gələcəkdə Avropa üçün enerji dəhlizinə çevrilməsi strateji hədəflərdən biri kimi qəbul edilir. Bu baxımdan Dövlət Proqramında da qeyd olunduğu kimi, Naxçıvan Muxtar Respublikasının enerji sisteminin Avropa Elektrik Ötürmə Sistemləri Operatorları Assosiasiyasının (ENTSO-E) şəbəkəsinə qoşulacağı təsadüfi sayılmamalıdır.

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda ən mühüm prioritet istiqamətlərdən biri də yeddinci prioritetdə öz əksini tapmış infrastruktur təminatının inkişafı ilə bağlıdır. Bu bənddə qarşıya qoyulmuş digər vəzifələrlə yanaşı, muxtar respublikaya aşağı büdcəli hava nəqliyyatı şirkətlərinin cəlbi, Zəngəzur dəhlizinin açılması ilə əlaqədar Naxçıvanın dəmiryol təsərrüfatının yenilənməsi əsas prioritetlərdən biri kimi qəbul olunmuşdur. Bu işlər Naxçıvanın postblokada dövrünə hazırlıq məqsədi daşıyır. Həmçinin muxtar respublikada fiber-optik magistral şəbəkənin, təbii qaz xətlərinin Türkiyə ilə əlaqələndirilməsi əsas hədəflərdən sayılır.

Dövlət Proqramında prioritet istiqamətlər kimi növbəti yerlərdə sosial sektorun, insan kapitalının inkişafı, həmçinin institusional inkişaf və ətraf mühitin mühafizəsi nəzərdə tutulub ki, burada da, əsasən, əhalinin sosial xidmətlərə əlçatanlığının təmin olunması, təhsildə keyfiyyətin artırılması, peşə tədrisinin əhatəsinin genişləndirilməsi, təbii sərvətlərdən layiqli istifadə və digər bu kimi məsələlər əks olunub.

Bunu da xatırladaq ki, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 6 mart tarixli Fərmanı ilə təsdiq edilmiş "Dövlət proqramlarının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi Qaydası"na əsasən qarşıya qoyulmuş vəzifə və tapşırıqların icrası hazırlanacaq tədbirlər planı üzrə ilkin, aralıq və yekun nəticələr nəzərə alınmaqla monitorinq olunacaqdır. Bu göstəricilər müvafiq fəaliyyət istiqamətlərinin icra statusunu qiymətləndirməyə də imkan verəcəkdir.

Ötən yazıda da qeyd etdiyimiz kimi Dövlət Proqramı hazırlanarkən davamlı inkişaf prinsiplərinin, mütərəqqi beynəlxalq təcrübənin və qlobal çağırışların nəzərə alınması Naxçıvanın növbəti illər üçün layiqli inkişafını təmin etməklə yanaşı, BMT-nin 2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyinə nail olunması istiqamətində də görüləcək işlərin əsasını təşkil edəcək. Elə Dövlət Proqramında qarşıya qoyulan vəzifələri prioritet edən də budur.

**✍ Səbuhi HƏSƏNOV**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

## "Uşaq əməyinin istismarının qarşısının alınması" mövzusunda tədbir keçirilib

*Dünən Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Naxçıvan Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Uşaq əməyinin istismarının qarşısının alınması" mövzusunda tədbir keçirilib.*

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova qeyd edib ki, uşaq hüquqlarının qorunması, sosial problemlərinin həll olunması, asudə vaxtlarının səmərəli təşkili Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu dövlət-uşaq siyasətinin tərkib hissələridir. Ulu Öndərin bu sahəyə qayğısı hesabına uşaq hüquqlarının qorunması ilə bağlı mövcud qanunvericilik bazası formalaşıb, ölkəmiz bir çox beynəlxalq konvensiyalara qoşulub, uşaq hüquqlarını qoruyan bir çox təşkilatlar yaradılıb. Azərbaycan qanunvericiliyi uşaqların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən işlərdə uşaq əməyinin tətbiq edilməsini qadağan edir.



Qeyd edilib ki, bu gün ölkəmizdə uşaqların müdafiəsi, onların sağlam böyüyərək layiqli vətəndaş kimi yetişmələri diqqətdə saxlanılır, bu istiqamətdə bir sıra tədbirlər həyata keçirilir. Uşaq əməyinin istismarına qarşı mübarizəyə yönələn tədbirlər onların əməyinin ən pis formalarının aradan qaldırılmasında əhəmiyyətli rol oynayır.

Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının müavini Təhminə Mustafayeva bildirib ki, uşaqların məcburi əməyə cəlb edilməsi, onların istismar olunması müasir dünyanın aktual məsələlərindən biridir. Bu məqsədlə də uşaq əməyinin istismarı hallarına qarşı inzibati tədbirlər görülməklə yanaşı, ardıcıl təbliğat-maarifləndirmə işləri həyata keçirilir. Bugünkü tədbirin də məqsədi məhz bu kimi halların aradan qaldırılmasına cəmiyyətin diqqətinin artırılması və bu istiqamətdə birgə səylərin gücləndirilməsidir.

Vurğulanıb ki, muxtar respublikada, o cümlədən Naxçıvan şəhərində qeyd olunan bu hallara çox az təsadüf olunur və ya ümumiyyətlə, rast gəlinmir. Ötən dövrdə Naxçıvan şəhərində də uşaq əməyinin istismarının qarşısının alınması ilə bağlı bir sıra işlər görülüb. Belə ki, Naxçıvan Muxtar Respublikası Daxili İşlər, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Naxçıvan Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə sosial xidmət və ticarət müəssisələrində və digər sahələrdə ardıcıl olaraq reydlər təşkil edilib. Keçirilən reydlər zamanı, əsasən, ticarət və xidmət obyektlərində müəyyən edilmiş nöqsanlarla bağlı müvafiq tədbirlər görülüb.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Aparatının Uşaq problemləri şöbəsinin əməkdaşı Elsun Cahangirli slayd vasitəsilə əmək münasibətləri sahəsində uşaq hüquqları barədə iştirakçılara geniş məlumatlar verib.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**




*Azərbaycan Ordusunun qurucusu, Ulu Öndər Heydər Əliyev deyirdi:* ***“Ordu qurmaq, silahlı qüvvələr yaratmaq böyük bir bina tikmək deyil. Ordu canlı orqanizmdir. Bu bir tərəfdən canlı orqanizm kimi yaşayır, ikinci tərəfdən isə canlı orqanizm kimi daim inkişaf etməlidir. Ona görə də biz Silahlı Qüvvələrimizi ilbəil təkmilləşdirməliyik, onun gücünü artırmalıyıq, peşəkarlıq səviyyəsini yüksəltməliyik, təchizatını ilbəil yaxşılaşdırmalıyıq”.*** *Ulu Öndərin bu tövsiyələrinə ölkəmizdə, onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda ciddi əməl edilir, ordunun müdafiə potensialının durmadan gücləndirilməsinə xüsusi diqqət yetirilir, kompleks tədbirlər həyata keçirilir, hərbi hissələrin maddi-texniki bazaları möhkəmləndirilir.*

**Ordun varsa, yurdun var**

# Vətənin keşiyində dayanmaq şərəfli bir vəzifədir



Naxçıvan Muxtar Respublikasının müdafiə qabiliyyətinin möhkəmləndirilməsi məqsədilə 2013-cü ildə Ordu Korpusunun əsasında Əlahiddə Ümumqoşun Ordunun yaradılması, hərbi qulluqçuların mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində Naxçıvan şəhərində 20 təqvim ili və daha çox qüsursuz xidmət etmiş hərbi qulluqçulara yeni mənzillərin verilməsi, ötən illər ərzində zabitgizir ailələri üçün xidməti yaşayış binalarının açılış mərasimlərinin keçirilməsi, Əlahiddə Ümumqoşun Ordunun hissə və bölmələrinin komandir heyətinin yeni xidməti avtomobillərlə təmin olunması, əvvəlki illərdə aparılan hərbi quruculuq işlərinin davam etdirilməsi və digər tədbirlərin reallaşdırılması, ümumilikdə, orduya və orduda qulluq edən, xidməti borclarını yerinə yetirən zabit və əsgərlərə göstərilən qayğıdır.

Dəfələrlə muxtar respublikanın müxtəlif ərazilərində Vətənə xidmət borcunu yerinə yetirən zabit və əsgərlərimizlə görüşmüş, onlara bu ünvanlarda yaradılmış şəraiti görmüşük. Qəvi düşmənlə, sözün həqiqi mənasında, bir addımlıqda üzbəüz dayanan əsgərlərimizdə müşahidə etdiyimiz vətənpərvərlik hissləri qəlbimizi qürur hissi ilə doldurub. Bu günlərdə Ordubad rayonuna gedərkən daha bir qürurverici ünvanda dayanmalı olduq. Nürgüt kəndindən bir qədər yuxarıda, yolun sağında dayanmış bir əsgərin yanında avtomobilimizi saxladıq. Əsgərlə qısa söhbət bizdə bu bölük mərkəzindən yazı hazırlamaq arzusu yaratdı. Buradakı hissənin timsalında Azərbaycan Silahlı Qüvvələrinin döyüş hazırlığını yüksəltmək üçün həyata keçirilən məqsədyönlü tədbirlərin canlı şahidi olduq. Bir daha neçə illər əvvəl gördüyümüz məqamları xatırladıq. Və ondan sonrakı dövrlərdə belə ünvanlarda həmin silsilə tədbirlərin davamlı xarakter alması da xüsusi vurğulanmalıdır.

***Hərbi hissə ilə tanışlıq***

Bizi müşayiət edən Nürgüt kənd inzibati ərazi dairəsi üzrə nümayəndə ***Məhərrəm Həbibov***un söhbətindən hiss edirəm ki, bu yaşayış məntəqəsinin sakinləri hərbçilərlə sıx əlaqə saxlayır, tez-tez görüşür, əlamətdar və tarixi günlərdə, bayram ərəfələrində Vətənimizin keşiyində dayanan igid eloğullarımızın yanlarında olurlar. Bu, ölkəmizin hər yerində xalq-ordu birliyinin bariz göstəricisidir. Deyir ki, hər bir ölkənin təhlükəsizliyi onun sərhədlərinin etibarlı qorunmasından asılıdır. Sərhədlər isə o zaman etibarlı qorunur ki, onu qoruyan ordu çevik, peşəkar zabit və əsgər heyətindən ibarətdir. Azərbaycanın sərhədlərinin etibarlı qorunması bu gün onlara tapşırılıb. Əgər bu heyət qayğı ilə əhatə olunubsa, onda heç bir nigarançılığa əsas yoxdur.

Ona görə də bu gün hamı hərbi hissələrdə yaradılmış yüksək nizam-intizamdan razılıq edir. Valideynlər də fəxr duyurlar ki, övladları Vətənə olan ən böyük və müqəddəs vəzifəsini yerinə yetirir. Onunla bölüyün həyatına daxil oluruq. Qarşımıza bir əsgər çıxır. Təbəssümlə bizimlə görüşür. Onun səliqəli geyimindən, danışığından hiss olunan nizam-intizamı, əsgəri addımları belə düşmənə gözdağıdır. Bu da bir həqiqətdir ki, məhz belə igidlərin hesabına 30 il düşmən tapdağı altında olan torpaqlarımızı geri qaytardıq... Bölük mərkəzinin həyətində valideynlər də var. Onlar öz övladlarının görüşünə gəliblər. Hal-əhval tuturuq, söhbətə körpü salırıq. Bu an bir əsgər görüş yerinə yaxınlaşır. Valideynlərdən biri ayağa qalxaraq ona sarı addımlayır. Əsgər bizimlə də görüşməyi unutmur. Elə görüşür ki, sanki neçə illərdir, bir-birimizi tanıyırıq. Başqa cür də ola bilməz. Ordu sıralarında Vətənə müqəddəs borcunu yerinə yetirən oğullarımız ata-baba əmanəti olan torpaqlarımızın keşiyində dayanıb. Onlar hamımız üçün əzizdir. Söhbət zamanı daha bir qürur duyduğumuz məqam o oldu ki, əsgərlər torpaqlarımızın daha əziz və müqəddəs olmasını dəfələrlə vurğuladılar. Bu qiymətli, heç nə ilə əvəz olunmayan sərvətin keşiyində dayanmağı ən şərəfli bir vəzifə və vətəndaşlıq borcu saydıqlarını dilə gətirdilər.

***İlk həmsöhbətlərimiz zabitlərdir***

Hərbi hissənin öz qanun-qaydaları var. Bu qaydalara riayət etmək lazımdır. İndiyədək olduğumuz hissələrdə bu qanunlara riayət edilməsini bütün Azərbaycan Silahlı Qüvvələrinə şamil etmək olar. Nizam-intizam olan yerdə isə hər çətinliyi dəf etmək mümkündür. Bir neçə saat ərzində burada heç bir çətinliyin olmadığını gördük.

Bölük komandiri kapitan ***Yelmar Nağıyev***lə söhbət edirik. Deyir ki, bu gün blokada vəziyyətində olmasına baxmayaraq, inkişaf və tərəqqi edən ölkəmizdə, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında ardıcıl və sistemli şəkildə həyata keçirilən ordu quruculuğu prosesi bütün hərbi hissələri əhatə edib. Hərbi hissələrdəki yeniliklər real vəziyyətin obyektiv göstəricisidir. İndi doğma diyarımızın bütün qoşun hissələri belə yeniliklərlə doludur və bu ünvanlarda özünü qabarıq şəkildə göstərən nizam-intizam, səliqə-sahman, yüksək döyüş ovqatı qürur və sevinc hissi doğurur. Əsgərlərin və zabitlərin nümunəvi xidmət və qulluğu üçün bu bölük mərkəzində də hərtərəfli şərait yaradılıb. Müasir tələblər səviyyəsində qurulmuş yeməkxana, anbar ilk baxışda səliqə-sahmanı, gigiyenik-sanitar qaydalara cavab verməsi ilə diqqəti cəlb edir. Əsgərlərin asudə vaxtlarının səmərəli keçirilməsi təmin olunub. Bundan əlavə, şəxsi heyətin fiziki sağlamlığının təmin edilməsi məqsədilə lazımi idman qurğuları quraşdırılıb. Əsgərlər müntəzəm olaraq idmanla məşğul olur, fiziki hazırlıqlarını artırırlar. Burada əsgərlərin yüksəkkalorili və keyfiyyətli qida məhsulları ilə təminatına xüsusi önəm verilir. Yelmar Nağıyev bunu da diqqətə çatdırır ki, son illər ordu ilə xalq arasında yaradılmış sıx birliyi elə bu bölüyün və nürgütlülərin timsalında daha yaxından görmək mümkündür. Müntəzəm olaraq rayon İcra Hakimiyyəti və sərhəd bölgəsində fəaliyyət göstərən dövlət qurumları, həmçinin Nürgüt və yaxınlıqda olan digər kəndlərin camaatı əsgərlərlə görüşə gəlir, onlara sovqatlar gətirirlər.

Öyrənirik ki, əsgərlərin müayinəsini düzgün aparmaq, ilkin müalicəni təşkil etmək üçün bölükdə hərtərəfli imkanlar yaradılıb. Bu da xidməti borcunu yerinə yetirən əsgərlərin sağlamlığının qorunmasında vacib şərtdir.

Müddətdən artıq hərbi xidmət hərbi qulluqçusu ***Vüsal Hüseynov*** söhbətə qoşularaq deyir ki, yüksək səviyyədə təmin olunmuş mənəvi-psixoloji ab-hava, əsgərlərin siyasi hazırlığının yüksəldilməsi diqqətdə saxlanılıb. Bunun üçün ideoloji otaqda lazımi şərait yaradılıb. Burada televizor, qəzet və jurnallar, müxtəlif bədii ədəbiyyatlar əsgər və zabitlərin siyasi və hərbi biliklərinin artırılmasında mühüm rol oynayır. İdeoloji-siyasi təlim məşğələlərində əsgərlərə izah olunur ki, Azərbaycanın, həmçinin onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının müxtəlif zamanlarda hərbi müdaxilələrə məruz qalması, əsasən, ordumuzun yeni formalaşdığı dövrlərə təsadüf edib. Elə ötən əsrin 90-cı illərinin əvvəllərində erməni hərbi birləşmələrinin muxtar respublikanın sərhədlərinə mütəmadi hücumlarının əsas hədəfi də bu qədim türk yurdunun işğal edilməsi məqsədini daşıyırdı. Tarixdən bəllidir ki, Naxçıvan torpaqlarına olan iddialar çoxdan var idi. Mənfur ermənilər həm ötən əsrin əvvəllərində, həm II Dünya müharibəsi dövründə, həm də sovetlər zamanında bu iddialarından əl çəkməmişlər. “böyük Ermənistan” yaratmağın əsas cinahlarından biri də qədim Naxçıvan torpaqlarını ələ keçirmək olub. Əsgərlərə o da çatdırılır ki, məhz Ulu Öndər Heydər Əliyevin Naxçıvanda ordu quruculuğuna başlaması ermənilərin bu xülyasının qarşısını aldı.

***Əsgərlər deyirlər ki...***

Əsgərlərlə söhbət edirəm. İlk ünsiyyətdən onların döyüş hazırlığına, yüksək vətənpərvərliyinə, dövlətə, xalqa bağlı olduqlarına heç bir şübhəm qalmır. Əsgər ***Aqşin Günəşli*** Bakı şəhərindəndir. Fiziki və psixoloji cəhətdən əsl hərbçi, vətənpərvər və hərbi biliklərə malik gəncdir. Söhbət zamanı bildirdi ki, onlara şərəfli bir iş tapşırılıb. “Bizim üzərimizə böyük vəzifə düşür. Bu vəzifənin məsuliyyətli olduğunu dərk edirəm. Arxamızda güclü dövlətin durduğunu hiss edəndə mübarizlik daha da artır. Bunun ifadəsini 3 il əvvəl gördük” sözlərini qürurla deyir.

Şərur rayonundan gəlmiş ***Ayxan Cəfərli*** xidməti borcunu yerinə yetirməyindən fəxrlə danışır. Deyir ki, buraya gəlməmişdən Ordubad rayonunun bu səfalı guşəsi barədə çox az məlumatı olub. Bu kiçik yurd yerinin təbiətinin zənginliyindən ürəkdolusu danışır. Onlar üçün yaradılmış şəraitdən də razılıq edir: – Arxada qalan günlərin necə keçdiyini hiss etməmişəm. Çünki bölükdə yüksək nizam-intizam, əsgərə qayğı görürük. Burada Azərbaycanın müxtəlif bölgələrindən hərbi xidmətə gələnlər var. Onlar da Naxçıvan barədə razılıqla danışırlar.

***Vətənə xidmət etmək məsuliyyəti***

Zabitlərlə, əsgərlərlə, valideynlərlə söhbətlərimizi, burada gördüklərimizi qısaca da olsa, oxuculara çatdırmağa çalışdıq. Buna nə dərəcədə nail olduqsa, onu oxucular deyə bilər. Bizim gəldiyimiz qənaət isə belədir ki, bəhs etdiyimiz hissədə qulluq və xidmət edənlər məsuliyyətlərini dərindən dərk edirlər. Vəzifə məsuliyyəti dərk olunan yer isə sərhəddir – Vətənin başlandığı yer. Vətənin başlandığı yer etibarla, ayıq-sayıqlıqla qorunursa, deməli, müstəqilliyimiz, dövlətçiliyimiz də etibarlı, ayıq-sayıqlıqla qorunur.

Ulu Öndərin ən müdrik tövsiyələrindən biridir: ***“Vətəni qorumaq öz ana torpağını, evini, obasını, yurdunu, şərəfini qorumaqdır. Vətəni qorumaq öz namusunu, şərəfini qorumaqdır. Vətəni qorumaq öz atasını, anasını, balalarını, övladlarını qorumaqdır. Vətəni qorumaq Azərbaycan xalqının tarixini, mənəviyyatını, əsrlərboyu əldə etdiyi milli mədəniyyətini, milli iftixarını qorumaq deməkdir. Bu, şərəfli yoldur. Bu, şərəfli vəzifədir”.***

*Bu kiçik bölükdə, hərbi qulluğunu və xidmətini ləyaqətlə yerinə yetirən zabit və əsgərlərdən ayrılarkən hələ burada ikən yaşadığımız təəssüratlar bizi tərk etməmişdi. Təəssüratlar isə Ulu Öndərin həmin qiymətli tövsiyəsinin bugünkü reallığıdır.*

**Muxtar MƏMMƏDOV**
**Ceyhun MƏMMƏDOV**

**Əfsanəyə dönən ömürlər**

# Öz nağılını yazan qəhrəman



Quliyev İlkin Rafail oğlunun valideynləri Ordubad rayonundandır. Özü isə 15 aprel 2002-ci ildə Moskva şəhərində anadan olmuşdu. 2008-ci ildə ailəsi ilə birlikdə Bakı şəhərinə köçmüş, Sabunçu rayonunun Bakıxanov qəsəbəsində fəaliyyət göstərən 310 saylı tam orta məktəbdə təhsil almışdı. Onu yaxından tanıyanlar deyirlər ki, İlkin uşaqlıqda həm sakit, həm də çox ağıllı uşaq idi. Ondan həm müəllimləri, həm də yaxınları razı qalırdılar. İdmana böyük marağı var idi. Məktəbdə, həmçinin məktəbdənkənar idman yarışlarında fəal iştirak edirdi.

Orta təhsilini başa vuran İlkin 2019-cu ildə Qərbi Kaspi Universitetinin eyniadlı Kollecinə, Marketinq ixtisasına qəbul olmuşdu. O, ikiillik kollecin yalnız bir ilini oxuya bilir, təhsilini yarımçıq qoyaraq 2020-ci ilin aprel ayında hərbi xidmətə yollanır. İlkin cəmi altı ay əsgərlik edir. Bu altı ay ərzində əsgərlik həyatı ona çox şeylər öyrədir. Komandirlərinin əmrlərinə can-başla əməl edir, hərbi nizam-intizama tabe olmaqla bir əsgər kimi üzərinə düşən tapşırıqları vaxtlı-vaxtında yerinə yetirir. Ancaq ürəyi ön cəbhədə olan İlkinin arzusu yerinə yetir: öz istəyi ilə arxa cəbhədən ön cəbhəyə göndərilir. Ancaq ön cəbhədə olduğunu gizlədir. Xocavənd, Cəbrayıl və Füzuli uğrunda gedən döyüşlərdə iştirak edir. Bir sıra yüksəkliklərin alınmasında fəallıq göstərir. İnanır ki, xalqımızın haqq işi qalib gələcək. Öz qoçaqlığı, döyüş qanunlarına əməl etməsi ilə yoldaşlarının və komandirlərinin hörmətini qazanır. Geri alınan hər bir yaşayış məntəqəmiz onu daha da ruhlandırır. Qəlbində düşmənə nifrət hissi yanan İlkin inanır ki, 30 ilə yaxın bir müddətdə işğal altında qalan torpaqlarımız geri alınacaq, soydaşlarımız öz doğma dədə-baba yurdlarına qayıdacaq. Ordumuzun günügündən güclənən əks-hücum əməliyyatı onda olan bu qənaəti getdikcə daha da gücləndirir.

8 oktyabr 2020-ci ildə ağır yaralanır və yaralandığı zaman əlcəklərini çıxarıb əsgər yoldaşına əmanət edərək deyir ki, həmin əmanəti atasına çatdırsın. İlkin hərbi hospitala gətirilsə də, onun həyatını xilas etmək mümkün olmur. 10 oktyabr 2020-ci ildə şəhadətə yüksəlir. Bu igid Vətən övladı Sabunçu rayonundakı Şəhidlər xiyabanında dəfn olunur.

44 günlük Vətən müharibəsində canından keçən İlkin Quliyevin dediyi “Nağıl yazıram” kəlməsi unudulmaz olaraq qalacaq bizə. 2020-ci il sentyabrın 27-dən Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2020-ci il 15 dekabr tarixli Sərəncamına əsasən İlkin Quliyev ölümündən sonra “Vətən uğrunda”, 2020-ci il 25 dekabr tarixli Sərəncamına əsasən “Füzulinin azad olunmasına görə” medalları ilə təltif edilib.

İlkin, dediyin kimi də oldu. Sən özünün nağılını yazdın. Unudulmaz olaraq qalacaqsan qəlblərimizdə və heç bir zaman unudulmayacaqsan.

**Fəxriyyə ALLAHVERDİYEVA**
***Naxçıvan Musiqi Kollecinin III kurs tələbəsi***

## Virtual sərgi hazırlanıb




“Heydər Əliyev İli” çərçivəsində AMEA Naxçıvan Bölməsinin Elmi Kitabxanası tərəfindən Ümummilli Lider Heydər Əliyevin 100 illiyi ilə əlaqədar olaraq “Heydər Əliyev – 100 il” adlı virtual sərgi hazırlanıb.

Virtual sərgidə Ulu Öndərin həyatının müxtəlif dövrlərində çəkilmiş fotoşəkilləri, Heydər Əliyev siyasi irsindən, onun Azərbaycan tarixindəki yerindən, mədəniyyətimizin, mənəvi dəyərlərimizin qorunmasına diqqətindən, habelə elmin inkişafına qayğısından bəhs edən kitab və monoqrafiyalar, dövri mətbuatda dərc olunan məqalələr nümayiş olunur.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

## Tədbir keçirilib

Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) və Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin birgə təşkilatçılığı ilə “Fövqəladə vəziyyət zamanı insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi: hüquqlar və vəzifələr” mövzusunda hüquqi maarifləndirmə tədbiri keçirilib.



Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayının komandiri Şərif Əsədov və İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) aparatının şöbə müdiri Asiman Abbasov giriş sözü ilə çıxış edərək tədbirin keçirilməsinin məqsəd və əhəmiyyəti barədə danışıblar.

Sonra Ombudsmanın əməkdaşları Aysel Nəcəflinin və Həsən Həsənovun, Fövqəladə Hallar Nazirliyinin əməkdaşı İsmayıl Hənifəyevin müxtəlif mövzularda çıxışları dinlənilib, sonda videoçarx nümayiş etdirilib.

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***

*Yeni nəşrlər*

# Naxçıvan əlyazmalar xəzinəsinin açar kitabı

*Hər bir xalqın xarakterik xüsusiyyətlərinə, daxili dünyasının mənzərəsinə və potensial imkanlarına bələd olmaq istəyənlər, birinci növbədə, onun yaratmış olduğu mədəni sərvətə, əsərlərinə və abidələrə müraciət edirlər. Belə mədəni irsimizdən olan əlyazmaların toplanması istiqamətində gərgin fəaliyyət göstərən, filologiya üzrə elmlər doktoru Fərman Xəlilovun rəhbərlik etdiyi AMEA Naxçıvan Bölməsinin Əlyazmalar Fondunda ərsəyə gələn "Naxçıvanın əlyazmalar xəzinəsi" kitabı əlyazmalarımızı uğurla elmi ictimaiyyətə təqdim edən qiymətli mənbədir.*




Nəşrin elmi redaktoru akademik İsmayıl Hacıyev, rəyçisi isə AMEA-nın müxbir üzvü Hacıfəxrəddin Səfərlidir. Fərman Xəlilov, Səbuhi İbrahimov, Fəxrəddin Eylazov və Kübra Vəliyevanın birgə tərtib etdiyi kitab "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində işıq üzü görüb.

Üç bölmədən ibarət olan kitab Fərman Xəlilovun "Əlyazmalar Fondunun yaranması və inkişaf yolu" başlıqlı genişhəcmli hesabatı ilə başlayır. Burada əlyazmaşünaslıqla bağlı Azərbaycanın dövlət siyasətini həyata keçirən Əlyazmalar Fondunun yaradılmasının əsas məqsədi və qarşısında qoyulan əsas vəzifələrə nəzər salınır. Qədim əlyazma və çap kitablarının toplanılması, sistemləşdirilməsi, kataloqunun hazırlanması, tədqiqi, nəşri və təbliği kimi mühüm vəzifələri yerinə yetirən fondun fəaliyyətə başladığı 2005-ci il 8 aprel tarixdən bu günə qədər ki 17 illik fəaliyyətinə nəzər salınır, görülən işlər, aparılan tədqiqatlar əhatəli şərh olunur. Fondun ilk iclasının nəticəsi olaraq əlyazmaların toplanması, dəyərinin müəyyənləşdirilməsi, alınması üçün Əlyazmaların Qəbulu Komissiyasının, bu gün Azərbaycan, ingilis və rus dillərində 300-dən çox çap kitabını əhatə edən kitabxananın, müsəlman ölkələrinin tarixi, ədəbiyyatı, mədəniyyətinə dair materialların qorunduğu Şərq otağının yaradılması, müraciətlər atılan mühüm əhəmiyyətli addımlar kimi diqqətə çatdırılır. Dövlət rəsmiləri, bölmə rəhbəri və fond əməkdaşlarının fond arxivini və kitabxanasını zənginləşdirmək istiqamətində beş istiqamət üzrə apardığı işlər və onların nəticəsi olaraq Naxçıvanda olan və Naxçıvana dair kənardan gətirilən nadir əlyazmaların vahid bir mərkəzdə toplanılmasına nail olunması nəzərə çatdırılır. Buradaca onu qeyd edim ki, öz şəxsi kitabxanasından fonda ən çox – yəni 90 adda əlyazma və çap kitabı bağışlayan da elə Fərman Xəlilov olmuşdur. Fəxrəddin Eylazovun rəhbəri olduğu Əlyazmaların toplanması şöbəsində 600-dən çox elmin müxtəlif sahələrinə dair ərəb, fars və türkdilli əlyazmalar, daşbasma üsulu və elektrik mətbəəsində çap olunan kitablar əldə edilmişdir. Bu mədəni xəzinənin əsrlərlə tarixi olan inciləri haqqında ayrı-ayrılıqda bəhs edən müəllif 500 illik tarixi olan "Qurani-Kərim"in incə nəstəliq xətti ilə ərəbcə yazılmış çox kiçik formatlı əlyazmasını, ən qədim türkdilli əlyazma kimi Azərbaycanın qəlb şairi, qəzəl ustadı M.Füzulinin "Leyli və Məcnun" poemasının adlarını xüsusi olaraq qeyd edir. Dosent Səbuhi İbrahimovun rəhbərlik etdiyi Əlyazmaların kataloqlaşdırılması, tədqiqi və nəşri adlı II şöbənin əlyazmalar haqqında araşdırmaları, 2018-2021-ci illərdə nəşr etdirdikləri farsdilli, türkdilli və ərəbdilli əlyazma və çap kitablarının kataloqları ən mühüm uğurlu addımlar kimi qiymətləndirilir. III şöbə – Əlyazmaların mühafizəsi, gigiyenası, bərpası şöbəsinin 2016-cı ildən fəaliyyətə başlaması, əlyazmaların bərpası istiqamətində görülən işlər, əlyazmaların elektron variantının hazırlanmasına başlanması, əməkdaşlıqların genişləndirilməsi, tamamilə yeni bir istiqamətdə – Naxçıvanın elm, mədəniyyət, ədəbiyyat və maarif xadimlərinin şəxsi arxivlərinin yaradılması, aparılan tədqiqat işləri haqqında ətraflı məlumat verilir. Tədqiqata cəlb olunan əlyazmaların siyahısı isə geniş olmaqla tarix, tibb, dilçilik, ədəbiyyat, məntiq, fəlsəfə, həndəsə, astronomiya və sair elm sahələrini əhatə edir. Əvvəlcə ayrı-ayrı əməkdaşların hər birinin əsərləri haqqında, daha sonra isə ümumiləşdirilərək 17 il ərzində fond əməkdaşlarının 30-dək monoqrafiya və kitab, eləcə də 300-dən çox elmi məqalə və konfrans materialının dərc olunduğu mənbələr, əməkdaşların fəlsəfə doktorluğu və elmlər doktorluğu tədqiqatları, keçirilmiş elmi seminarların müzakirə mövzuları və sair barədə məlumat verilir. Fondun 17 illik fəaliyyəti barədə dərin ümumiləşdirmələri və çox həssas fərdi münasibətilə seçilən bu hesabatın nəticəsi kimi əhəmiyyət kəsb edir.

Kitabın ilk bölməsi "Naxçıvan əlyazma və çap materiallarında" adlanır. Burada Məhəmmədtağı Sidqinin Naxçıvan axundu Hacı Molla Məhəmməd Naxçıvaniyə yazdığı "Dilimiz və məktəbimiz" adlı məktubunun mətni, ölkəşünas Hacı Mirbağır Mirheydərzadənin Şərur dairəsinə ekspedisiyasının nəticələri – ayrı-ayrı kəndlərdə rast gəldiyi tarixi əhəmiyyət daşıyan maddi mədəniyyət nümunələri, pirlər, müqəddəs ocaqlar, kövşənlər, məskunlaşan tayfalar, əhalinin məşğuliyyəti, Bayatlar, Yəftənilər və Kəngərlilər haqqındakı məlumatlar tədqiqatlar üçün istiqamət vermək baxımından da önəmlidir. Seyid Səbrinin 1926-cı ildə "Şərq qapısı" qəzetində dərc olunmuş "Ordubad qəzasında asari-ətiqə" adlı məqaləsində asari-ətiqə kimi təqdim olunmuş məşhur "Qoç qəbiristanlığı", "Çardağ" qəbiristanlığı, yaşı 1200-dən çox olan çinar ağacı, məşhur "Came" məscidi, Kilit kəndliləri və onların dilləri, Vənənd məscidi, Biləv kəndindəki qədim daş körpü və daş qala və sair Ordubad qəzasının tarixi abidələrlə zənginliyini və onların tədqiqinin planlaşdırılması zərurətini ortaya qoyur. Naxçıvanı Tədqiq və Tətəbbö Cəmiyyətinin 14 iclas protokolunda, xüsusilə diqqəti cəlb edən məqamlar cəmiyyətin mahiyyəti, məqsəd və vəzifələri barəsində və xüsusən də Bakıda çağırılacaq Türkoloji Qurultaya hazırlıq məqsədilə dinlənilən "Türk dilinin mənşəyi və tarixi inkişafı", "Türk tayfalarının ibtidai tarixi və ibtidai dini təsəvvürləri", "Türk dilinin bugünkü vəziyyəti", professor A.A.Millerin "Qızılvəngin tədqiqi" kimi məruzələr, təqdim olunan suallar, ümumən, böyük maraq doğurur. "Cavanlar həyatı" qəzetinin ilk nömrəsinin, "Şərq qapısı" qəzetinin 100-cü yubiley nömrəsinin baş məqalələri, fondda mühafizə olunan qədim əlyazma, çap kitabları və müxtəlif sənədlərdə Naxçıvanla bağlı materiallar, həmçinin əlyazma və çap kitablarının naxçıvanlı müəllifləri, katibləri, sifarişçiləri, çap etdirənləri haqqında məlumatlar da ilk bölməyə daxil edilmişdir. Əlyazmalardan biri Naxçıvan şəhərində rus imperatoru II Nikolay Aleksandroviçin tacqoyma gününün qeyd edilməsi mərasimində M.Sidqinin etdiyi çıxışın əlyazmasıdır:

*Cəhd qıl qoy zəmanədə bir əd,*
*Eyləsinlər səni bu ad ilə yad.*
*Aç bu əbnayi-millətə məktəb*
*Orda təhsil olunsun elm-ədəb,* –

deyən Sidqi "Dilimiz və məktəbimiz" adlandırılan bu əlyazmanın mətnində millət balalarının ana dilində təhsil almasından, dilimizin saflaşdırılması və inkişaf etdirilməsindən, maarif və mədəniyyət işlərindən danışmış, Naxçıvan şəhərində, onun qəsəbə və kəndlərində yeni üsulda, ana dilində milli məktəblər açmaq istəyindən söz açmışdır. M.T.Sidqi çıxışında dilimizin çox korlanmasından, insanlarımızın mənasını bilmədən ərəb, fars, rus sözlərini yerli-yersiz işlətmələrindən təəssüflə söz açır. Müəllif dörd dilin sözlərindən istifadə edən iki müsəlmanın dilini konkret nümunələr gətirməklə bunu türk dili adlandırmağın qeyri-mümkünlüyündən danışır: "Bu dil elə bir libasa bənzəyir ki, guya pambığı Türküstanda əkilib, ipliyi İranda əyrilib, rəngi Ərəbistanda vurulub, özü Azərbaycanda toxunub, Rusiyada gömrüklənib, xərc və kirayəsi çox olduğuna görə heç bir tayfa etina etməyib və heç bir ölkədə füruşa getməyib həmin bu səfahətda satılmaqdadır".

"Fondun çap məhsulları" adlı ikinci bölmədə fond əməkdaşlarının nəşr olunmuş monoqrafiya və kitablarına nəzər saldıqda XV əsr Azərbaycan sufi şairi Bayrək Quşçuğolu, Suli Fəqihin "Yusif və Züleyxa"sı, "Munisnamə", "Gülşəniraz", "Tibnamə" və digər müxtəlif dövrlərə dair əlyazma mətnlərinin transliterasiyası, tərcüməsi, tədqiqi istiqamətində böyük əməyin və sonsuz fədakarlığın sübutları ilə qarşılaşırıq. Çox az sayda elmi əməkdaşlarla bu qədər araşdırmaların aparılması və nəşri, həqiqətən də, son dərəcə təqdirəlayiq bir haldır.

Kitabın sonuncu bölməsində Əlyazmalar Fondunda mühafizə olunan əlyazma və çap kitablarına dair bu gündək və hazırda fondda çalışan əməkdaşların araşdırmaları təqdim olunur.

Əsərin sonuna Məhəmməd Füzulinin Əsgər ibn Hüseyn bəy Ordubadinin sifarişi ilə üzü köçürülmüş "Leyli və Məcnun" poemasına çəkilən miniatürlər və bəzi arxeoqrafik sənədlərin nüsxələrinin fotoları əlavə edilmişdir.

Sonda onu qeyd etmək yerinə düşər ki, çox haqlı olaraq "Naxçıvanın əlyazmalar xəzinəsi" adlandırılan bu kitab xalqımızın, həqiqətən də, dəyərini heç zaman itirməyən, illər ötdükcə, əksinə, daha da qiymətini artıran əlyazmalar haqqında əvəzsiz bir mənbədir. Bu dəyərli mənbə vasitəsilə oxucular fonda getmədən əlyazmaların bir qismi ilə tanış olur, eyni zamanda konkret olaraq onu maraqlandıran əlyazmaya dair hansı tədqiqatların olduğunu rahatlıqla öyrənə bilirlər. AMEA Naxçıvan Bölməsinin Əlyazmalar Fondu haqqında hərtərəfli və zəngin, deyərdim ki, ensiklopedik məlumatları özündə ehtiva edən bir kitab münasibətilə tərtibçiləri təbrik edir, cansağlığı və uğur arzulayıram!

**Aygün ORUCOVA**
***AMEA Naxçıvan Bölməsinin əməkdaşı, dosent***

## Növbəti maarifləndirmə tədbiri təşkil olunub



Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin və Dövlət Vergi Xidmətinin birgə təşkilatçılığı ilə Culfa rayonunda "Bələdiyyələrə ödənilən vergilərlə bağlı qanunvericiliyin tələbləri" mövzusunda tədbir keçirilmişdir. Tədbirdə Culfa Rayon İcra Hakimiyyətinin, Ədliyyə Nazirliyinin və Dövlət Vergi Xidmətinin əməkdaşları vergi qanunvericiliyinin tələbləri mövzularında çıxış ediblər.

Qeyd olunub ki, qanunvericiliyə əsasən bələdiyyə maliyyəsinin əsaslarını bələdiyyə əmlakı, bələdiyyə torpaqları, yerli büdcə və sair təşkil edir. Bələdiyyə maliyyəsinin əsasını təşkil edən yerli büdcə, əsasən, yerli vergilər hesabına formalaşır. Yerli vergilər bələdiyyələrə ödənilən vergilərdir və Azərbaycan Respublikası vergi sisteminin tərkib hissəsidir. "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" Azərbaycan Respublikasının Qanunu yerli vergilərin və ödənişlərin əsaslarını müəyyən edir, vergiödəyiciləri arasında yaranan münasibətləri tənzimləyir.

Sonda mövzu ilə bağlı iştirakçıları maraqlandıran suallara aydınlıq gətirilib, bukletlər paylanılıb.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

## Sosial sığorta haqları üzrə daxilolmalar 11,8 faiz artıb

Naxçıvan Muxtar Respublikasında 2023-cü ilin yanvar-iyun ayları ərzində muzdlu işçi sayının və əməkhaqqı fondunun "ağarması" prosesi şəraitində məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar 72,4 milyon manatdan çox olub. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 11,8 faiz və ya 7,6 milyon manat artım deməkdir. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 2022-ci ilin eyni dövrünə nisbətən 17,4 faiz artaraq 19,9 milyon manat təşkil edib.

2023-cü ilin 6 ayında işsizlikdən sığorta haqları üzrə daxilolmalar ötən ilin müvafiq dövrü ilə müqayisədə 16,2 faiz artaraq 1,9 milyon manat olub. Bu dövrdə icbari tibbi sığorta haqları üzrə daxilolmalar 11,3 milyon manat olmaqla ötən ilin eyni dövrünə nisbətən 8,9 faiz artıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

## Naxçıvan Dövlət Milli Dram Teatrının kollektivi Türkiyədə qastrol səfərində olub



Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrının kollektivi iyul ayının 13-dən 17-dək Türkiyədə qastrol səfərində olub. Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Səməd Canbaxşiyevin türkiyəli dramaturq Mehmet Ümit Görgülünün "Cibimizdəki cənnət" əsəri əsasında hazırladığı "Cibimizdəki dəlilik" psixoloji komediyası ilə qastrola çıxan kollektiv qardaş ölkənin Ege bölgəsində, Sardes, Foça və İzmir şəhərlərində tamaşanı teatrsevərlərə təqdim ediblər. Bundan başqa, kollektiv antik dövrdə teatrın yarandığı iddia edilən Sardesdə keçirilən VIII Beynəlxaq Dionis Teatr və Təlim Düşərgəsinə də qatılıb. Burada Azərbaycanı təmsil edən yeganə teatr kollektivinin aktyorları türkiyəli mütəxəssislər tərəfindən teatrla bağlı təşkil olunan təlimlərdə iştirak edib və teatrın direktor müavini Səməd Canbaxşiyev Naxçıvan teatrının tarixi, yaradıcılıq ənənələri və bu günü ilə bağlı iştirakçılara geniş məlumat verib.



Sardesdəki açıq hava altındakı meydanda Azərbaycan folklorunun nümunələri olan "Kos-kosa" oyunu, "Xınayaxdı" mərasimi və "Tənzərə" yallısı ilə tamaşaçılar qarşısında çıxış edən kollektiv qədim türk folklorunun Azərbaycanda bu gün də yaşadıldığını göstərib. Oyundan sonra yerli tamaşaçılar bu cür ənənələrin bir zamanlar onlarda da olduğunu, lakin artıq unudulduğunu vurğulayıblar. Milli ənənəni yaşatdıqları üçün Naxçıvandan olan aktyorlara təşəkkür ediblər.

Eyni zamanda əsərin müəllifinin doğulduğu Foçada və Türkiyənin teatr şəhəri sayılan İzmirdə təqdim edilən tamaşalar seyrçilər tərəfindən maraqla və ayaq üstə alqışlarla qarşılanıb.

Tamaşalardan sonra çıxış edən türkiyəli dramaturq Mehmet Ümit Görgülü Naxçıvan teatrının kollektivinə əsərinin peşəkar səviyyədə və yüksək ustalıqla hazırlayıb təqdim etdiklərinə görə təşəkkürünü bildirib.

Qeyd edək ki, Mehmet Ümit Görgülünün "Cibimizdəki dəlilik" əsərinin rejissoru, musiqi tərtibatçısı və baş rolunun ifaçısı Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Səməd Canbaxşiyev, rəssamı Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Səyyad Bayramovdur. Tamaşada rolları isə teatrın gənc aktyorları Məmməd Mehdiyev, Ələsgər Quliyev, Uğur Nəsirli, Mehri Nəbiyeva, Ləman Vəliyeva, Vəfa Qurbanova, Mirqabil Əkbərov, Amil Yusifov və Azərbaycan Respublikasının Əməkdar artisti Əbülfəz İmanov ifa edirlər.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

***İtmişdir***

İsmayılov Sinan Məmməd oğlunun adına olan AD-0054075 seriya nömrəli hərbi vəsiqə itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonunun Vənənd kəndində yaşamış Əsgərova Dilbər Sadıq qızının adına olan JN-382A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Xanlıqlar kəndində yaşamış Əliyev Əli Həsən oğlunun adına olan JN-118 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur şəhər sakini olmuş Qarayev Siburə Təvəkkül oğluna məxsus Mikayıl Müşfiq küçəsi, 1/8 ünvanında yerləşən mənzilin 627 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 431